# Azərbaycanın seçki təcrübəsi beynəlxalq aləmdə yüksək qiymətləndirilir



***2020-ci il fevralın 9-na təyin edilmiş parlament seçkilərində iştirak etmək üçün indiyə qədər 2 min 381 namizəd müraciət edib. Onlardan 2 min 270 nəfərinin namizədliyi təsdiq olunub. Deputat olmaq istəyənlərin 2 min 149 nəfəri imza vərəqələrini götürüb və 1041 nəfəri imza vərəqələrini dolduraraq geri qaytarıb. 617 nəfərin namizədliyi isə artıq qeydə alınıb.***

***Qeyd edək ki, fevralın 9-na təyin edilmiş parlament seçkilərində namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi müddəti artıq başa çatır. Parlament seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına əsasən, sənədlər namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış, yəni 2019-cu il dekabrın 21-dən 2020-ci il 10 yanvar saat 18:00-dək təqdim edilməlidir. Bu günün sonuncu gün olduğunu nəzərə alsaq, qeydə alınan namizədlərin sayının daha çox olacağı inamı yaranır.***

Yanvarın 10-da həm də səsvermə protokollarının hazırlanması müddəti başa çatır. Protokollar Mərkəzi Seçki Komissiyasının qərarı ilə müvafiq poliqrafiya müəssisəsi tərəfindən səsvermə gününə ən geci 30 gün qalanadək, yəni yanvarın 10-dək hazırlanmalıdır. Eyni zamanda, yanvarın 10-da, həmçinin seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsi müddəti də başa çatır. Göründüyü kimi, artıq deputat mandatı uğrunda mübarizə daha gərgin fazaya daxil olur.

Ümumiyyətlə, 1993-cü ilin sonlarından başlayaraq prezident, parlament və bələdiyyə seçkiləri azad, ədalətli və şəffaf şəkildə keçirilməklə ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən tarixi hadisəyə çevrilib. Seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası və aidiyyəti dövlət qurumları tərəfindən Seçki Məcəlləsində, həmçinin digər qanunvericilik aktlarında nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərin icrasına xüsusi diqqətlə yanaşılır. Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün



seçki prosesi iştirakçılarının maarifləndirilməsi, namizədlərin irəli sürülməsi və qeydə alınması qanunvericiliyin tələblərinə əsasən həyata keçirilir. Bununla yanaşı, bərabər şərtlərə əsaslanan geniş seçkiqabağı təşviqat imkanlarının yaradılması, müşahidəçilər və kütləvi informasiya vasitələri nümayəndələrinin azad və sərbəst fəaliyyəti üçün tam maneəsiz şəraitin yaradılması və bütün digər addımlar MSK-nın hazırlayıb təsdiq etdiyi Təqvim Planına əsasən aparılır.

Ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olan seçkilərin demokratik və şəffaf keçirilməsi dövlət başçısının diqqət mərkəzində saxladığı prioritet sahələrdəndir. Prezident İlham Əliyevin 2005-ci il mayın 11-də və oktyabrın 25-də imzaladığı sərəncamları burada xatırlatmaq yerinə düşərdi. Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair, habelə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqındakı həmin sərəncamlar parlament seçkilərinin ən yüksək standartlara uyğun şəkildə hazırlanması və keçirilməsi üçün lazımi şəraitin yaradılmasına sanballı töhfə verdi. Dövlət başçısının imzaladığı bu sərəncamlar beynəlxalq aləmdə də yüksək dəyərləndirildi. Beynəlxalq ekspertlər Azərbaycanda seçkilərin demokratik keçirilməsində ölkə başçısının siyasi iradə nümayiş etdirməsini demokratik prinsiplərin inkişafına böyük önəm verilməsi kimi qəbul etdilər.

Seçkilərdə exit-pollun tətbiqi, barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi, müşahidəçilər dairəsinin genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsi üzərində məhdudiyyətlərin götürülməsi şəffaflığın təmin olunması istiqamətində atılan qətiyyətli addımlardır. Bununla yanaşı, hakimiyyət orqanlarının seçkilərdə bitərəf mövqe tutmasının təmin edilməsi, seçki hüquqlarının pozulması ilə bağlı daxil olan məlumatların operativ və hərtərəfli araşdırılması, seçki komissiyalarının normal fəaliyyəti üçün bütün lazımi şəraitin yaradılması Azərbaycanda seçki praktikasının tam təkmilləşdirilməsindən xəbər verir. Bu proseslər seçkiyə qatılan siyasi partiyalar, bitərəflər, o cümlədən müstəqil namizədlər, eləcə də beynəlxalq təşkilatların rəhbərləri, müşahidəçilər və aparıcı xarici dövlətlərin siyasi liderləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bununla da, seçkilərin ədalətli və şəffaf keçirilməsini yersiz şübhə altına almağa cəhd göstərən anti-Azərbaycan qüvvələrin və radikal müxalifətin bütün ehtimallarına, şayiələrinə son qoyulmuşdur.

Ötən illər ərzində "Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" qanunların qəbul olunması seçki praktikasının daha da yaxşılaşdırılmasına kömək etmişdir. Artıq ölkəmiz demokratik seçki keçirməyə qadir olduğunu dəfələrlə təsdiqləyib. Bunu ziyalılar, politoloqlar və seçkiyə qatılmış siyasi partiyaların nümayəndələri də təsdiqləyirlər.

**Baba Babayev, AMEA-nın Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru:**

– Cəmi 29 illik müstəqillik tarixi olan ölkəmizin dünya birliyində yüksək reytinq qazanmasının əsas səbəblərindən biri də demokratik proseslərin inkişafına xüsusi önəm verilməsidir. Xüsusilə, insan hüquq və azadlıqlarının müdafiəsinin, o cümlədən şəffaf, azad və ədalətli seçki keçirilməsinin prioritet vəzifə kimi qarşıya qoyulması və buna nail olunması ölkəmizin nüfuzunu getdikcə artırdı. Beynəlxalq müşahidəçilər də etiraf edirlər ki, hər dəfə Azərbaycanda seçki prosesini izləyəndə mütləq hər hansı bir yeniliyin şahidi olurlar. Bu, seçkilərin şəffaf keçirilməsində ölkə başçısının siyasi iradə nümayiş etdirməsinin nəticəsidir.

Bəzi beynəlxalq müşahidəçilər barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsini insan hüquqlarına zidd hesab edirdilər. Ancaq sonradan hiss etdilər ki, bu, bir seçicinin təkrar səs verməsinin qarşısının alınmasında ən yaxşı vasitədir. Hətta bu fikri səsləndirən beynəlxalq müşahidəçilər sonradan həmin üsuldan istifadə olunması təklifini öz ölkələrində də irəli sürəcəklərini bildirmişdilər. Bütün bunlar qarşıdan gələn parlament seçkilərinin də demokratik şəraitdə keçiriləcəyinə əminlik yaradır.

**Mehman İsmayılov, YAP Səbail rayon təşkilatı sədrinin müavini:**

–Hər kəsə bəllidir ki, Azərbaycanda demokratik seçki keçirilməsinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. İllər keçdikcə ölkəmizdə seçki prosesi daha da təkmilləşdirildi. Beynəlxalq ekspertlərin də yüksək qiymətləndirdikləri Seçki Məcəlləsi bu sahədə əsaslı dönüş yaratdı. Möhtərəm Prezidentimiz İlham Əliyevin qarşıya qoyduğu prioritet vəzifələrdən biri də demokratik, azad və ədalətli seçki keçirilməsinə nail olmaq idi. Artıq ölkəmiz bu sahədə zəngin təcrübə qazanıb.

Hətta, inkişaf etmiş dövlətlər şəffaflığın təmin olunmasında Azərbaycanın təcrübəsindən istifadə edirlər. Məsələn, seçki məntəqələrində veb-kameraların quraşdırılması təcrübəsi beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Azərbaycanın seçki təcrübəsində 2008-ci ildən uğurla tətbiq edilən və səsvermə günü seçki məntəqələrində prosesləri internet vasitəsilə hər kəs üçün açıq platformada canlı nümayiş etdirən veb-kameralardan bu il keçiriləcək parlament seçkilərində də istifadə olunacaq. Seçki məntəqələrində səsvermə proseslərinin birbaşa izlənilməsi üçün bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində quraşdırılan veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin olunması üçün kameraların tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi daim diqqətdə saxlanılır. Veb-kameralar seçki günü internet istifadəçilərinə istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla heç bir qeydiyyat tələb olunmadan səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini fasiləsiz müşahidə imkanı yaradacaq. Şəffaflığın təmin olunmasında ən yaxşı vasitə kimi qəbul edilən bu üsul ölkəmizin demokratik seçki ənənəsinə sadiqliyinin nümunəsidir.

**Könül İsmayılova, Müasir Müsavat Partiyasının üzvü:**

–Son illər ölkəmizdə keçirilən seçkilərə müşahidəçi kimi qatılmışam. Hər dəfə də azad, ədalətli və şəffaf seçkinin şahidi olmuşam. Seçkilərin beynəlxalq standartlar səviyyəsində keçirilməsi üçün bütün zəruri addımlar atılır. Hər dəfə də yerli və beynəlxalq müşahidəçilər, kütləvi informasiya vasitələrinin nümayəndələri və digər aşkarlıq institutlarının seçki prosesi boyunca azad və sərbəst fəaliyyət göstərmələri üçün hərtərəfli şərait yaradılır. Seçkilərdə bütün digər vasitələrlə yanaşı, ən son innovativ nailiyyətlərdən səmərəli istifadə olunması səsvermə günü prosesləri əvvəldən-axıradək fasiləsiz izləməyə, arası kəsilmədən müşahidə aparmağa və şəffaflığın daha geniş miqyasda təmin edilməsinə imkan verir.

Seçkidə məğlub olanlar günahı başqalarında yox, özlərində axtarmalıdırlar. Xalq ən layiqli namizədə səs verir. Seçicilərin etimadını qazana bilməyənlərin yalan və böhtanlara əl atması təbiidir. Belələri hələ də məğlubiyyəti etiraf etmək mədəniyyətinə yiyələnə bilməyiblər.

Dünyanın müxtəlif ölkələrindən gəlmiş beynəlxalq müşahidəçilər demokratik və şəffaf seçkinin şahidi olduqları barədə açıqlamalar verdikləri halda, seçkidə məğlub olanlar minbir uydurma, yalan və böhtana əl atırlar. Ancaq heç nəyə nail ola bilmirlər. Çünki Azərbaycanın demokratik seçki keçirmək təcrübəsi beynəlxalq aləmdə də yüksək qiymətləndirilir.

**Builki parlament seçkilərində iştirak etmək istəyənlərin ölkəmizin tarixində görünməmiş saya -- 2 min 381 nəfərə çatması, həmçinin namizədlər arasında Azərbaycanın bütün siyasi qüvvələrinin təmsil olunmasına şəraitin yaradılması demokratik ənənələrə sadiqliyin bariz nümunəsidir.**

***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***